Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 283
(2996) ÇƏRŞƏNBƏ, 12 DEKABR 2001-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

İNDEKS 0001

Qiyməti 1000 manat

# AZƏRBYCAN XALQI BEYNƏLXALQ TERRORİZMİN KÖKÜNÜN KƏSİLMƏSİNİN TƏRƏFDARIDIR VƏ ABŞ-ın BU İSTİQAMƏTDƏ GÖRDÜYÜ TƏDBİRLƏRİ DƏSTƏKLƏYİR

## 11 SENTYABR FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ YADETMƏ MƏRASİMİ

### *AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR*

*Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarının Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş terror hadisələrindən üç ay ötür. Bu münasibətlə dekabrın 11-də ABŞ-ın Bakıdakı səfirinin iqamətgahında həmin faciənin qurbanlarının xatirəsini yadetmə mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasimi ABŞ-ın ölkəmizdəki səfiri Ross Uilson açdı.*



## ABŞ-IN ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSONUN ÇIXIŞI

- Hörmətli cənab prezident!

Hörmətli xanımlar və cənablar!

Üç ay bundan qabaq, təxminən elə bu dəqiqələrdə, terroristlər xəbis niyyətləri ilə Amerika Birləşmiş Ştatlarına hücum etdilər. Bu hücumlar minlərlə amerikalının və 80 ölkənin vətəndaşlarının həyatına son qoydu. Amerika Birləşmiş Ştatları azadlıq, dözümlülük və imkanlar üçün bir qüvvə olduğuna görə, bu hücumları törədənlər onu hədəf seçdilər. Onlar isə qəddarlığı və terroru təmsil edirlər.

Dünya Ticarət Mərkəzinə və Pentaqona hücumla onlar firavanlığın, ümidin və təhlükəsizliyin əzəmətli rəmzlərinə hücum etdilər. Həmin terroristlər özləri isə nifrəti və qorxunu təmsil edirlər.

Bu terror aktlarının təşkilatçılarına havadarlıq edənlər bir neçə gün bundan əvvəl dünyanı 11 sentyabr hadisələrini unutmağa çağırmışlar. Beləliklə, onlar bizim qorxuya və qırğına göz yummağımıza nail olmaq istəyirlər.

Bu gün biz bəyan edirik ki, sentyabrın 11-də gördüyümüz mənzərələri heç zaman unutmayacağıq. Biz müxtəlif irqlərə və dinlərə məxsus, - islam dininə etiqad edənlər də daxil olmaqla, - həlak olmuş günahsız insanları heç zaman unutmayacağıq. Biz həlak olanların minlərlə yetim qalmış doğmalarını, dağılmış ailələrini və onlar üçün inləyən dostlarını heç zaman unutmayacağıq.

Bu gün bir yerə yığışaraq sentyabrın 11-də həlak olanları, eləcə də dünyada terrorizmin qurbanı olmuş insanları indi və əbədi yad edirik. Biz qəddarlıqdan, nifrətdən, ümidsizlikdən və qorxudan birlikdə imtina edirik və terrorizmlə mübarizədə qətiyyətimizi nümayiş etdiririk. Biz bir daha əmin oluruq ki, əməkdaşlıq, ticarət, qarşılıqlı hörmət və həmvətənlərimizə şəfqət vasitəsilə dünyanı özümüz və uşaqlarımız üçün daha gözəl bir məkana çevirə bilərik və çevirəcəyik.

Mən bugünkü yadetmə mərasiminə gəldiyinizə görə sizə təşəkkür edirəm. İndi çıxış üçün prezident Heydər Əliyevə söz veriləcəkdir. Cənab Şeyxülislam hacı Alahşükür Paşazadə öz dualarını oxuyacaqdır. Ondan sonra həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edəcəyik və dövlət himnləri səslənəcəkdir.

**Cənab prezident, bu gün Sizin burada iştirakınız hər bir yerdə terrorizm qurbanı olmuş insanların xatirəsinə hörmət əlaməti və ölkələrimiz arasında mövcud olan həmrəyliyə canlı bir sübutdur.** İndi isə Sizdən çıxış etməyi xahiş etmək mənim üçün böyük şərəfdir.

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə çıxış etdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Üç ay öncə, sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda və Vaşinqtonda baş vermiş dəhşətli terror hadisələri Amerika Birləşmiş Ştatlarının xalqını sarsıtdığı kimi, bütün dünyada sülhpərvər insanları, o cümlədən Azərbaycan xalqını da sarsıtmışdır. **Bu hadisə bizi hiddətləndirmiş və beynəlxalq terrorizmin, ümumiyyətlə, terrorizmin bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu, insan cəmiyyəti üçün nə qədər təhlükəli olduğunu bir daha nümayiş etdirmişdir.**

**Biz bu dəhşətli terror hadisəsi ilə əlaqədar dərhal öz səsimizi qaldırmışıq, Amerika Birləşmiş Ştatlarının xalqı ilə, dövləti ilə bir yerdə olduğumuzu bəyan etmişik. Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı apardığı mübarizəyə qoşulmuşuq və Amerika Birləşmiş Ştatları ilə birlikdə bir alyansda, bir koalisiyada olduğumuzu bəyan etmişik.**



**Mən bu gün bir daha bəyan edirəm ki, uzun illər terrorizmdən zərərlər çəkmiş, zərbələr almış Azərbaycan xalqı həmişə terrorizmin əleyhinə olubdur və bu gün də, harada olursa olsun, dünyada bütün terrorizmin kökünün kəsilməsinin tərəfdarıdır və Amerika Birləşmiş Ştatlarının bu istiqamətdə apardığı bütün tədbirləri dəstəkləyir.**

Məmnuniyyət hissi ilə demək olar ki, ötən üç ay ərzində Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı apardığı əməliyyatlar artıq öz müsbət nəticəsini göstərir, uğurla həyata keçirilir. Ümidvarıq ki, bu əməliyyatlar bundan sonra da davam edəcək və dünyada, hər yerdə terrorizmin kökü kəsiləcəkdir.

Biz Amerika Birləşmiş Ştatlarının xalqı ilə birlikdə olduğumuzu, onların dərdinə şərik olduğumuzu bu gün bir daha bəyan edirik və bu hadisələrdən indiyə qədər qəm-qüssə içərisində olduğumuzu bildiririk. Həlak olanlara Allahdan rəhmət diləyirik. Həlak olmuş insanların ailələrinə, yaxınlarına Allahdan səbr diləyirik.

Biz terrorizmə, beynəlxalq terrorizmə "Yox"! deyirik və həmişə bu istiqamətdə mübarizədə olduğumuzu bildiririk.

Sağ olun.

* * *

Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam hacı Allahşükür Paşazadə çıxış etdi.



## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏNİN ÇIXIŞI

- Bismillahir-rəhmanir-rəhim!

Hörmətli cənab prezident!

Hörmətli səfir, mərasim iştirakçıları!

Mən çox danışmayacağam. Əlbəttə, bizim prezidentimiz mövqeyimizi bildirdi. O cümlədən xalqımızın ayrılmaz hissəsi olan dindarların mövqeyini bildirdi.

Mən bir-iki kəlmə ilə Qafqaz müsəlmanları adından demək istərdim ki, sentyabrın 11-də Vaşinqtonda, Nyu-Yorkda baş vermiş hadisələr bütün Qafqaz müsəlmanlarını sarsıtdı. Prezident həzrətlərinin müraciətindən sonra bizim də Amerika xalqına, prezident cənab Buşa müraciətimiz oldu. Biz onu dəstəklədik. Ondan sonra terrorizmə qarşı təbliğatlar aparıldı. Sonra isə Azərbaycanda yaşayan müsəlmanların, xristianların, yəhudilərin və ümumən bütün Qafqazda yaşayan müsəlmanların rəhbərləri ilə birlikdə "İslam və terror barışmazdır" mövzusunda bir konfrans keçirdik.



Biz mərhumların ruhlarına dua oxuduq. İstərdim, üç ay keçmiş olsa da, bu gün onları yada salaq, bir neçə dua oxuyaq və "Allah-Təala onlara rəhmət eləsin" deyək.

* * *

Şeyxülislam 11 sentyabr faciəsində həlak olanların ruhlarına dua oxudu.

Sonra faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Amerika Birləşmiş Ştatlarının və Azərbaycanın dövlət himnləri səsləndi.

ABŞ-ın Bakıdakı səfiri Ross Uilson yadetmə mərasiminin başa çatdığını bildirərək dedi ki, biz bu axşam beynəlxalq terrorizmə qarşı mübarizədə bir yerdə olduğumuzu bir daha nümayiş etdirdik. Gəlin, biz bu mübarizədə qalib gələk və həm Azərbaycan xalqı üçün, həm əfqan xalqı üçün, həm də bütün dünya insanları üçün möhkəm və davamlı sülhə nail olaq. Çox sağ olun.

Milli Məclisin sədri Murtuz Ələsgərov, parlament sədrinin və baş nazirin müavinləri, Prezidentin Katibliyinin rəisi Dilarə Seyidzadə, Prezidentin İcra Aparatının şöbə müdirləri, nazirlər, Bakıdakı dini konfessiyaların rəhbərləri, xarici ölkələrin respublikamızdakı səfirləri və digər rəsmi şəxslər mərasimdə iştirak edirdilər.

***AzərTAc***

***Foto Yaşar Xəlilovundur***